Teaching of Azerbaijani Language and Literature
2026 / Volume 72, Number 3 / 96–110
https://doi.org/10.48445/q3018-1057-3228-l

İbtidai sinif şagirdlərinin orfoqrafik vərdişlərinin formalaşdırılmasında müasir metodlardan istifadə

Maya Qasımova [1]

XÜLASƏ

Məqalədə ibtidai sinif şagirdlərinin orfoqrafik vərdişlərinin formalaşdırılmasında müasir təlim metodlarının rolu və tətbiqi imkanları araşdırılır. Orfoqrafik savadlılıq şagirdlərin yazılı nitqinin inkişafında mühüm amil olduğu əsaslandırılır. Məqalədə interaktiv təlim üsullarının, oyun texnologiyalarının, müvafiq internet platformalarından istifadənin, diferensiallaşdırılmış və problem əsaslı tapşırıqların şagirdlərdə orfoqrafik bacarıqların inkişafına təsiri nümunələrlə təhlil edilir. Məqalədə qeyd edilir ki, müasir təlim metodlarından məqsədyönlü və sistemli şəkildə istifadə ibtidai sinif şagirdlərində düzgün yazı vərdişlərinin formalaşmasına və orfoqrafik səhvlərin azalmasına müsbət təsir göstərir.

AÇAR SÖZLƏR

ibtidai məktəb, şagirdlər, orfoqrafik vərdişlər, müasir metodlar

MƏQALƏ TARİXÇƏSİ

Göndərilib: 11.04.2026
Qəbul edilib: 26.08.2026

[1]Pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan
https://orcid.org/0000-0001-9116-4331 | maya0866@gmail.com

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Azərbaycan dili və ədəbiyyat tədrisi
2026 / Cild 72, Nömrə 3 / 96–110
https://doi.org/10.48445/q3018-1057-3228-l

Using Modern Methods in Forming Spelling Habits of Primary School Students

Maya Gasimova [1]

ABSTRACT
The article examines the role and application possibilities of modern teaching methods in the formation of orthographic skills of primary school students. The importance of orthographic literacy as a key factor in the development of students' written language is substantiated. The study compares traditional approaches with modern methods and analyzes the impact of interactive teaching techniques, game-based learning, the use of information and communication technologies, differentiated instruction, and problem-based tasks on the development of orthographic competence. From a methodological perspective, modern teaching methods are shown to enhance students' learning activity and promote conscious and sustainable learning. The article concludes that systematic and purposeful use of modern methods has a positive effect on the formation of correct spelling skills and the reduction of orthographic errors among primary school students.

KEYWORDS
elementary school, students, spelling habits, modern methods

ARTICLE HISTORY
Received: 11.04.2026
Accepted: 26.08.2026

[1]Doctor of Philosophy in Pedagogy, Associate Professor, Azerbaijan State Pedagogical University. Azerbaijan
https://orcid.org/0000-0001-9116-4331 | maya0866@gmail.com

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Giriş

XX əsrin sonlarından başlayaraq ölkəmizin təhsil sahəsində həyata keçirilən islahatların əsas məqsədi cəmiyyətin ehtiyac və tələblərini nəzərə almaqla, təhsilin məzmun və struktur baxımından yenilənməsinə, təlim prosesinin təkmilləşməsinə nail olmaqdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda təhsilimizin qarşısına qoyulan vacib strateji istiqamətlər sırasında yer alır, "səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması" vacib bilinmişdir (2, s. 13). Bu gün ümumtəhsil məktəblərində tətbiq olunan kurikulum islahatı mahiyyətcə həmin xəttin reallaşdırılmasına xidmət edir və yetişməkdə olan gənc nəslin müstəqil həyata daha hazırlıqlı atılması üçün özündə ən zəruri nəticəyönlü bilik və bacarıqları ehtiva edir (14, s. 117).

İbtidai sinifdə Azərbaycan dili fənni şagirdlərdə bir sıra bacarıqların formalaşması baxımından çoxşaxəli funksiya daşıyır: şagirdlərin ilkin bacarıqlara yiyələndirilməsi, oxu vərdişlərinin təşəkkülü, kolliqrafik bacarıqlarının inkişafı, şifahi və yazılı nitqin formalaşdırılması və s. Yazılı nitq insanın həyat fəaliyyətində əhəmiyyətli yer tutur. "Yazı – bəşəriyyət üçün tərəqqiyə açılmış qapı, insanların mədəniləşmə vasitəsi, bəşəriyyətin mənəvi və maddi mədəniyyətinin mühafizəkarı, mədəni irsi cəmiyyətdən cəmiyyətə çatdıran qırılmaz bağ, dünyanın bir ucunda yaranmış kəşfi, ixtiranı tez bir zamanda bütün insanların ortaq malına çevirən ümumiləşdirici və içtimailəşdirici vasitədir" (Dəmirçizadə, 2007, s. 212–213). Hər bir insanın yazı mədəniyyəti onun həlledici göstərici – savad dərəcəsidir. Savadlı yazı hamı tərəfindən qəbul edilmiş ümumicbari qaydalara – orfoqrafiyaya riayət olunmasını tələb edir.

Orfoqrafik qaydalara riayət əsasən ibtidai sinifdən başlayır. Çünki məhz ibtidai mərhələdə bütün linqvistik bilik, bacarıq və vərdişlərin təməli qoyulur və şagirdin gələcəkdə təhsil sahəsində qazandıqları nailiyyətlər bir çox hallarda bu təməlin düzgünlüyündən, möhkəmliyindən asılıdır. Professor A. Rəhimov yazır: "Orfoqrafiyanı öyrənmə məktəblilərin nəinki dilə dərindən yiyələnmələrini, həmçinin onların nitq və təfəkkürlərinin inkişafını və digər fənləri şüurlu mənimsəmələrini də təmin edir... Yuxarı siniflərdə təhsil alan şagirdlərin yol verdikləri müxtəlif xarakterli səhvlərin bir qrupu, şübhəsiz, həm də ibtidai siniflərdə bu sahədə kifayət dərəcədə bacarıq və vərdişlərə yiyələnməmələri ilə bağlıdır" (Rəhimov, 2015, 13, s. 360). Azərbaycan dili dərslərində ibtidai sinif şagirdlərinin orfoqrafik vərdişlərinin formalaşdırılmasında səmərəli yolların tədqiqi zəruriliyi məhz bu səbəblə aktuallıq kəsb edir.

Metodik ədəbiyyatda ibtidai sinif şagirdlərinin orfoqrafik vərdişlərinin inkişaf etdirilməsi üçün bir sıra ənənəvi metod və vasitələr mövcuddur. Buna nümunə olaraq, üzündənköçürmə və yaddaş üzrə (əzbər) yazıları, imlanın müxtəlif növlərini (kommentarili, izahlı, görmə, seçmə imla, sərbəst, yaradıcı, lüğət üzrə imla, "Özümü yoxlayıram" imlası və s.), qrammatik-orfoqrafik təhlilləri, leksik-orfoqrafik çalışmaları, orfoqrafik ifadə və inşaları göstərə bilərik. İmla – orfoqrafik çalışma növlərindən biri olub, eşitməyə əsasən qavradıqları

söz, cümlə, mətnin şagirdlər tərəfindən yazılmasıdır. Professor N. Cəfərova orfoqrafik vərdişlərin formalaşdırılmasında imlanın rolunu yüksək qiymətləndirərək yazır: "İmlalar orfoqrafik çalışmaların ən məhsuldar növüdür. İmlalar şifahi və yazılı nitqi əlaqələndirən inteqrativ yazıdır...Orfoqrafiya və orfoepiyanın sintezi olan imlalar Azərbaycan dili dərslərinin vacib tərkib hissəsidir. Dərsin 10-15 dəqiqəsinin imlalar üçün ayrılması müəllimin uğurunu təmin edir" (Cəfərova, 2016, s. 246). İmlaların təşkili yolları metodik ədəbiyyatda kifayət qədər işıqlandırılmışdır. Bu səbəbdən imlalarla bağlı əlavə şərhə ehtiyac duymuruq.

Müasir dövrün tələbləri şagirdlərin orfoqrafik qaydaları əzbərləməsini deyil, düşünmə, tətbiqetmə, müqayisəetmə, analiz-sintez kimi koqnitiv bacarıqları inkişaf etdirən innovativ metodların tətbiqini, orfoqrafik qaydaların mənimsənilməsinə istiqamətlənən çoxsaylı və rəngarəng çalışmaların aparılmasını zəruriləşdirir. Bu baxımdan, orfoqrafiya təliminin məzmunu və metodikası müasir pedaqoji və texnoloji yanaşmalar əsasında yenilənməlidir. Belə ki, eynitipli tapşırıqların icrası sagirdlərdə maraq doğurduğu halda aktiv fəaliyyət üçün stimul yaratmır. Bu baxımdan az effektlidir və orfoqrafik bacarıqlarının formalaşdırılması üçün daha maraqlı iş növlərindən istifadə edilməlidir. Çünki orfoqrafiya təliminin elmi əsaslar üzrə və sistemli aparılması üçün zəruri olan tələblərdən biri və birincisi *şüurluluqdur* (Kərimov, 2013, s. 373). Şüurluluq ayrı-ayrı orfoqramların məna və mənşəyinin, orfoqrafiya sistemində yerinin şagirdlər tərəfindən başa düşülməsini təmin edir. D. N. Boqayavlenskinin qeyd etdiyi kimi: "Orfoqrafiya tədrisində mexaniki üsul təkcə antipedaqoji, faydasız olmayıb, həm də insan ağlının aktiv fəaliyyətinə ziddir. Orfoqrafik material şüurlu fəaliyyət üçün aşağıdakı imkanları yaradır: fikirləşmək, sistemə salmaq, ümumiləşdirmək və yaddaşın işini yüngülləşdirmək" (Boqayavlenski, 1962, s. 92). Bu baxımdan, şagirdlərin orfoqrafik savadlılığının təmin olunmasında düşündürücü çalışmaların, didaktik oyunların, krossvord və rebusların, etimoloji və orfoqrafik təhlillərin rolu əvəzedilməzdir. Çünki bu proseslərdə şagirdin yalnız mexaniki yaddaşı deyil, həm də məntiqi düşüncəsi aktiv olur. Qeyd olunan iş növləri dərsi daha maraqlı, qeyri-standart təşkil etməyə imkan verir, ona əyləncəli, oyun elementləri qatır və bununla da doğma dilin öyrənilməsinə maraq oyadır. Bu səbəbdən müasir məktəblərdə bu tip dərslərin tətbiqi vacibdir.

Metodlar

Müasir pedaqogika orfoqrafiya təlimini şagirdyönümlü və fəaliyyətə əsaslanan mühitdə təşkil etməyi tələb edir. İnnovativ metodların tətbiqi aşağıdakı elmi prinsip və yanaşmalara əsaslanır:

Konstruktivizm – şagird yeni bilikləri mövcud biliklərinə söykənərək özü kəşf edir, "..konstruktivliyin əsas prinsipi bilik passiv şəkildə alına bilməz, öyrənənlər öyrənmə prosesində fəal olmalıdırlar kimi səciyyələndirilir. Ona görə də öyrənənlərə müvafiq qayda-

da, yaşa uyğun sərbəstlik verilməli, onlar öyrənmə prosesində fəal iştirak etməlidirlər". "...Konstruktiv təlim (inkişafetdirici təlim) əməliyyat-yaradıcı xarakter daşıyır. Təhsil alanlar öyrədəndən, dərslikdən və digər mənbələrdən əldə etdiyi informasiyalar üzərində məntiqi əməliyyatlar apararaq öz daxili duyumu, qavrayışı, başa düşmə qabiliyyəti hesabına xüsusidən ümumiyə istiqamətlənərək yeni biliklər formalaşdırır" (https://idrak-m.com/?p=1640).

Fəaliyyət yönümlü təlim (Kommunikativ və funksional yanaşma) – şagirdlərin bilikləri sadəcə dinləyərək deyil, fəal şəkildə iştirak edərək, araşdıraraq, tətbiq edərək və yaradaraq əldə etdiyi təlim modelidir. Bu yanaşmada şagird "dinləyən", orfoqrafik qaydaları sadəcə əzbərləyən deyil, *öyrənən, düşünən, araşdıran və həyata keçirən* mövqeyində olur. Yəni yazı bacarıqları real praktik nitq fəaliyyəti (oyunlar, qruplarla iş, layihələr və s.) çərçivəsində formalaşdırılır.

Differensiallaşdırma və fərdiləşdirmə – eyni sinifdə fərqli səviyyədə olan şagirdlərin ehtiyaclarına, imkanlarına və hazırkı bilik səviyyələrinə uyğun materiallar və tapşırıqlar təklif etməkdir. Yəni şagirdləri fərdi inkişaf tempinə uyğun tapşırıqlar üzərində çalışdırmaqdır. Məsələn, yazıda çətinlik çəkən şagirdə qısa, nümunəyə əsaslanan tapşırıqlar, sürətli öyrənən şagirdə tapşırıqdan əlavə yaradıcı iş, yaddaşı zəif olan şagirdə mnemotexnika, vizual modellər verilir.

Multimodal yanaşma – orfoqrafik qaydaların öyrədilməsində və düzgün yazı bacarıqlarının formalaşdırılmasında vizual, audial, kinestezik, mətn və rəqəmsal kanalların inteqrasiya olunmasıdır. Bu yanaşma şagirdlərin həm görmə, həm eşitmə, həm də tətbiqetmə qabiliyyətlərini aktivləşdirir və qaydaların daha möhkəm mənimsənilməsinə kömək edir. Məsələn, istənilən orfoqrafik qaydanın keçilməsi zamanı vizual təqdimatdan (qayda ilə bağlı sözün sxemi, qrafik görüntüsü), audial eşitmədən (sözün düzgün tələffüzü), hərəkət formalarından (oyun, kartlar), mətn üzrə işdən (qaydanın izahı, yazı tapşırığının icrası) və rəqəmsal resurslardan (interaktiv tətbiqlər) istifadə orfoqrafik səhvlərin azalmasına və yazıda dəqiqliyin artmasına imkan verir.


Bu prinsiplər orfoqrafiya bacarıqlarının dərindən və davamlı mənimsənilməsinə şərait yaradır.

İbtidai sinif şagirdlərində orfoqrafik vərdişlərin müvəffəqiyyətlə formalaşdırılması üçün aşağıdakı innovativ metodlardan istifadə edilir:

1) *Mnemonika priyomları* yazılışı çətin sözlərin yadda qalmasını asanlaşdırır. Mnemonika yunan sözüdür, mənası "yaddasaxlama məharəti" deməkdir. Mnemonika lazım olan məlumat və faktların süni assosiasiyaların köməyi ilə yadda qalmasını asanlaşdıran priyom və qaydaların məcmusudur. Əqli əmək mədəniyyəti nöqteyi-nəzərindən mnemonika – yaddasaxlamanın ən rahat priyomlarından biridir. Yazılışı çətin olan müəyyən sözləri şagird hər hansı bir əlamətinə görə özü üçün bir qrupda birləşdirə bilər, yəni beynində süni assosiasiya yarada bilər. Məsələn, l*ay*ihə, şa*yi*ə, müşa*yi*ət tipli sözlərin düzgün yazılışının


yadda qalması üçün şagird *yi* hərfbirləşməsini; *avtobus, avtomat, avtomobil* tipli sözlərin düzgün yazılışının yadda qalması üçün *avto* hərfbirləşməsini yadda saxlaya bilər və bu da həmin sözlərin *layihə, şaiyə, müşayiət; aftobus, aftamat, aftamobil* şəklində səhv yazılışının qarşısını alar. Bu texnikanı müxtəlif formalarda təşkil etmək olar:

a) Qrafik assosiasiya forması. Bu zaman söz yazılır, sözdəki orfoqramların (yazılışı ilə tələffüzü fərqlənən sait və ya samitlər) yerinə həmin hərfin formasında sözün ifadə etdiyi əşyanın şəkli və ya detalı çəkilir. Bu zaman şagird vizual şəkillərdən istifadə edərək yeni məlumatı əvvəlcədən yadında olan informasiya ilə uyğunlaşdırır, daha yaxşı yadda saxlayır. Məsələn, *avtomobil* sözündə dördüncü və altıncı yerdə duran *o* hərfi deyil, *o* hərfinin formasında avtomobilin təkərləri çəkilir. Və ya *qaşıq* sözü yazılır, sondakı *q* hərfinin yerinə *q* hərfi formasında qaşığın şəkli çəkilir və s.





Və ya söz vasitəsilə onun ifadə etdiyi obyektin rəsmini çəkmək də şagird üçün həmin sözü bəzi müəllimlərin icra etdirdiyi kimi, yüz sətir yazmaqdan daha maraqlı ola bilər. Məsələn, şagirdlərə *stəkan* sözü ilə (bəzi şagirdlər bu sözü yanlış olaraq *stakan* kimi yazırlar) stəkan şəklini çəkməyi və *qatıq* sözü ilə (bəzi şagirdlər yanlış olaraq *qatıx* kimi yazırlar) stəkanı "doldurmağı" təklif etmək olar.



b) Sözün yazılışını sözdə lazımi sözü tapmaqla yadda saxlamaq. Məsələn, *bloknot* sözünün yazılışını yadda saxlamaq üçün tərkibindəki *blok* sözündən istifadə etmək olar. Blok – bir neçə vərəqin bir yerə yığılmasıdır. Və ya şagirdlər rəsm, texnologiya dərslərində tez-tez eşitdikləri *dekorotiv* sözünü tələffüzə uyğun *dekarativ* şəklində yazırlarsa, müəllim

bu sözün tərkibindəki *dekor* (bəzəyirəm) sözünü izah etməli və *o-a* əvəzlənməsinin qarşısını almalıdır.

c) Krossvord yolu ilə yadda saxlama. Məsələn, aşağıdakı krossvordda olduğu kimi, şagirdlərin *zavod* sözünü yanlış olaraq *zovod* şəklində yazmaqlarının qarşısını almaq üçün mənaca nisbətən yaxın *fabrik* sözündən istifadə etmək olar:

	f			
z	**a**	v	o	d
	b			
	r			
	i			
	k			

2) *Perfokartlarla iş.* Təlim prosesində perfokartlardan istifadə şagirdlərə fərdi-differensial yanaşmağa imkan verir. Müəyyən orfoqrama aid hazırlanmış perfokartlar şagirdlərin diqqətini orfoqrafik qayda üzərində cəmləşdirməyə kömək edir, onlara bu qayda ilə bağlı biliklərini yoxlamağa şərait yaradır. Perfokartlarla işin müəllim üçün bir çox üstünlükləri var: müəllim qısa vaxt ərzində operativ olaraq bu və ya digər orfoqramın mənimsənilmə səviyyəsini qiymətləndirə və şagirdlərdə bir çox sözlərin düzgün yazılışı ilə bağlı vərdişlərin formalaşmasına kömək edə bilər.

Perfokart necə hazırlanır? Perfokart üzərinə müəyyən tapşırıq yazılmış birüzlü və ya arasına ağ vərəq qoyularaq ortasından bükülmüş ikiüzlü fərdi kartoçkalardır. Kartoçkanın üz hissəsində şagirdlərin içində yazması üçün "pəncərələr" kəsilir. Perfokartda müəllimin öyrətmək və ya möhkəmləndirmək istədiyi orfoqramdan asılı olaraq müxtəlif tapşırıqlar verilə bilər. Perfokartlar həm hazırlanma, həm də istifadə baxımından çox asandır. Onların adi kartoçkalardan üstünlüyü, hər dəfə içərisində təmiz vərəq qoymaqla dəfələrlə istifadə edilə bilməsidir. Məsələn, müəllim qoşa kar və ya qoşa cingiltili samitli sözlərin orfoqrafiyası ilə bağlı şagirlərin bilik və bacarıqlarını yoxlamaq istəyir. Bu zaman o, üzərində *diqqət, mütəkkə, saqqal, hoppanmaq* və s. sözlər yazılmış perfokartlar hazırlayır. Həmin sözlərdə yazılışı ilə tələffüzü fərqlənən samitlərin yerində "pəncərə" kəsir. Şagird perfokartın altına ağ vərəq qoyaraq "pəncərədə" buraxılmış orfoqramı yazır. Aşağıda sonundakı samiti karlaşaraq tələffüz olunan sözlə (*yarpaq [yarpax]*) bağlı hazırlanmış perfokart təqdim edilmişdir:



3) Didaktik vəsaitlərlə iş də öyrənilmiş orfoqramın təkrarlanmasına və daha möhkəm yadda qalmasına imkan verir. Orfoqramların təkrarlanması bədii ədəbiyyat nümunələri üzərində aparılarsa, bu, həm də şagirdlərin lüğətinin zənginləşməsinə, onlarda dilə marağın artmasına şərait yarada bilər. Məsələn, şagirdlərə "Yol" şeirin üzərində nöqtələrin yerinə lazımi hərfləri artırmağı təklif etmək olar:

Yaşıl işı... yananda,
Maşın..ar dayananda
Yolu cəld keç, yuba...ma,
Hara gəldi boyla...ma.
Aya... saxla, bir dayan,
Yolu keçmə buradan,
Keç yeraltı keçi...dən,
Uza... ol təhlükədən
(Nurullayeva, Allahverdiyeva, Bayramova, Xanalıyeva, 2020, s. 36).

Bu tip çalışmaların icrası zamanı şagirdlər yalnız buraxılmış hərfləri yerinə qoymurlar, eyni zamanda bədii ədəbiyyat nümunələri ilə bilavasitə təmasda olurlar.

4) Etimoloji təhlil. Etimoloji təhlil – sözün mənşəyini: yaranma yeri və vaxtını, ilkin formasını və mənasını göstərən linqvistik "vəsiqə"sidir. İbtidai sinif müəllimi bir çox sözlərin orfoqrafiyasını şagirdlərə şüurlu şəkildə mənimsətmək, yazıda özünü göstərən orfoqrafik səhvlərin qarşısını almaq üçün etimoloji təhlildən istifadə edə bilər. Belə ki, təlim prosesində şagirdlər, vaxtaşırı olaraq, yazılışını yalnız müasir dil faktları ilə izah etməyin mümkün olmadığı sözlərlə rastlaşırlar. Müasir ibtidai sinif Azərbaycan dili dərsliklərində belə sözlər yazılış qaydasının yadda saxlanılması üçün orfoqrafiya ilə bağlı rubrikalarda verilir. Halbuki, dil tarixini, bu və ya digər sözün yaranma mənşəyini izləyərək, həmin sözün nə üçün məhz bu cür yazıldığını asanlıqla şagirdə izah etmək və müəyyən qaydalar altında birləşdirmək olar. Təəssüf ki, müəllimlər bu metoda çox nadir hallarda müraciət edirlər, halbuki etimologiya və etimoloji təhlil dilimizdəki bir çox yazılışı "çətin" sözlərin daha yaxşı mənimsənilməsinə kömək edə bilər. Professor Ə. Əfəndizadə yazır: "Dil dərslərində etimoloji təhlildən istifadə dilimizin bir sıra sirlərini – sözlərin yaranması və yazılışındakı qanunauyğunluqları şagirdlərin maraqla öyrənməsi və daha əsaslı surətdə dərk etməsində müstəsna əhəmiyyətə malikdir".

İbtidai sinif müəllimi birinci növbədə yazılardakı səhvlərin səbəbini üzə çıxarmalı, daha sonra bu səhvlərdən hansının aradan qaldırılmasında etimoloji təhlildən istifadənin səmərəli ola biləcəyini müəyyənləşdirməlidir. Məsələn, ibtidai sinif Azərbaycan dili dərsliklərində verilmiş mətn və çalışmalarda şagirdlər *nümunə, ərişdə, dəstə, həftə, həşərat* və s. kimi yazılışı tələffüzündən fərqlənən sözlərlə rastlaşırlar və onların yazılışında səhvə yol verirlər. Məsələn, bəzən şagirdlər *nümunə* sözündə *ü-u* əvəzlənməsi edərək *numunə* yazırlar. Bunun

qarşısını almaq üçün müəllim şagirdlərə *nümunə* sözünün fars dilli söz olub, *nüma* (göstərmək) sözündən əmələ gəldiyini izah etməli, bu kökün dilimizə keçən bir neçə başqa sözdə də işləndiyini (*nümayəndə, nümayiş*) şagirdlərə başa salmalıdır. Şagirdlər *əriştə* sözünü səhvən *ərişdə* şəklində yazarlarsa, müəllim həmin sözün fars dilində "*rişta"* (ip) sözündən əmələ gəldiyini; *həftə* sözünü *həfdə* şəklində yazarlarsa, həmin sözün fars dilindəki "*həft*" (yeddi) sözündən əmələ gəldiyini; *dəstə* sözünü səhv olaraq *dəsdə* şəklində yazarlarsa, bu sözün fars dilində birlik mənasını ifadə edən "*dəst*" sözündən əmələ gəldiyini izah etməlidir. Şagirdlərin çoxu *həşərat* sözünün yazılışında çətinlik çəkir və əksər hallarda *həşarat* yazırlar. Müəllim şagirdlərə bu sözün ərəb mənşəli olduğunu və əsasında toplu mənasını ifadə edən *həşər* kəlməsinin durduğunu başa salmalıdır. İzah etməlidir ki, həşərat *həşərə* kəlməsinin cəmidir, "toplu halda yaşayan" deməkdir.

Şagirdlər yalnız alınma sözlərdə deyil, yazılışı ilə tələffüzü üst-üstə düşməyən əsl Azərbaycan sözlərində də bəzən səhvə yol verirlər. Belə səhvlərin bir qismini etimoloji təhlillə aradan qaldırmaq mümkündür. Məsələn, şagird *böyürtkən* sözünü *böyürtgən* şəklində səhv yazırsa, müəllim bu sözün tarixən mürəkkəb olub iki sözdən: *böyür* və *tikan* sözlərinin birləşməsindən əmələ gəldiyini şagirdlərə izah etməli və bununla da *k-g* əvəzlənməsinin qarşısını almalıdır.

Şagird yazılarındakı orfoqrafik səhvlərin səbəblərindən biri də dialekt və şivələrin yazıya gətirilməsidir. Bəzən şagirdlər *düyün* əvəzinə *dügün*, *iynə* əvəzinə *ignə*, *düymə* əvəzinə *dügmə* və s. yazırlar. Müəllim şagirdlərə izah etməlidir ki, *iynə* sözü cəhrənin tərkib hissəsi olan *iy* sözündən əmələ gəlmişdir. Şagirdlərin daha aydın başa düşməsi üçün müəllim şagirdlərə cəhrə və onun tərkib hissəsi olan iyin şəklini göstərməli və həmin alətdən xalça toxuculuğunda yunu, pambığı ip halına salmaq məqsədilə istifadə edildiyini söyləməlidir. Həmçinin müəllim *düymə* və *düyün* sözlərinin vaxtilə dilimizdə "bağlamaq" mənasını ifadə edən *düy* sözündən yarandığını şagirdlərə başa salmalı və bununla da həmin sözlərin yazılışında *y-g* əvəzlənməsi ilə təzahür edən orfoqrafik səhvlərin qarşısını almalıdır.

Bəzən şagirdlər tərəflərindən biri birhecalı olan və defislə yazılan – *al-əlvan, al-qırmızı* tipli mürəkkəb sözləri sifətin dərəcələrini düzəldən ünsürlərlə (*qıpqırmızı, sapsarı, gömgöy* və s.) qarışdıraraq bitişik yazırlar. Bu zaman müəllim şagirdlərə izah etməlidir ki, əslində, *al-əlvan, al-qırmızı* kimi sözlər sinonim sözlərin birləşməsindən yaranmışdır. Belə ki, həmin sözlərdə birinci tərəf (*al*) vaxtilə dilimizdə *parlaq qırmızı* mənasında işlənmiş və indi də bəzi ifadələrdə bu mənanı saxlamışdır (*al bayraq, al yanaq* və s.) (Əfəndizadə, 1980, s. 46).

İbtidai sinif müəllimi sözlərin mənşəyini, tarixi köklərini bədii-poetik şəkildə açan hekayələrdən istifadə etməklə yazılışı çətin sözlərin orfoqrafiyası ilə bağlı şagirdlərdə möhkəm vərdişlər formalaşdıra bilər (Məmmədov, 2014, s. 43). Belə ki, bəzən şagirdlər *kompüter, fonetika, kolbasa, konfet, komanda, motor, velosiped, kiloqram, konsert, poeziya* kimi sözlərin *a* səsi ilə tələffüz olunub *o* hərfi ilə yazıldığını; *şənbə, sünbül, günbəz, zənbil, zanbaq* sözlərinin *mb* səsbirləşməsi ilə tələffüz olunub *nb* hərfbirləşməsi ilə yazıldığını

bildikləri üçün mövcud qaydanı qeyd-şərtsiz *samovar, zavod, mavzoley, kalkulyator, laboratoriya, auksion, fauna, qrafin, tramplin; pambıq, kombayn, kömbə,* hətta *lampa* və s. kimi sözlərin yazılışına da tətbiq edərək, həmin sözləri yanlış olaraq *somovar, zovod, movzoley, kolkulyator, loboratoriya, ouksion, founa, qrofin, tromplin; panbıq, konbayn, könbə, lanpa* şəklində yazırlar. Bu zaman müəllim həmin sözlərin etimoloji zənciri ilə bağlı şagirdlərin marağını oyada biləcək hekayələr qurub müşahidə materialı kimi onlara təqdim edə bilər. Qurduğu hekayələrdə aşağıdakı məlumatlardan istifadə edə bilər:

Mavzoley – kökünü *mavsol* sözündən almışdır. Mavsol eramızdan əvvəl 377-ci ildə Türk ərazisində yerləşən qədim Kariya dövlətinin hökmdarı olmuşdur. Onun qəfil ölümündən sonra həyat yoldaşı Artemisiya ərinin xatirəsinə nəhəng məqbərə ucaltmışdır. Mavsolun "Mavsoley" adlandırılmış məqbərəsi dünyanın yeddi möcüzəsi siyahısına daxil edilmişdir. Zamanla həmin söz ümumiləşmiş xarakter alaraq qəbir üzərində tikilən böyük memarlıq abidəsi, türbə mənasında işlənmişdir. Deməli *mavzoley* sözünün ilk saiti etimologiyasına uyğun olaraq *a* ilə yazılmalıdır.

Eyni qayda ilə *lampa, kombayn, pambıq* sözlərinin etimoloji zənciri ilə bağlı hekayə qurub şagirdləri həm maraqlandırmaq, həm də həmin sözlərin *zənbil, sünbül, şənbə* və s. sözlərin yazılışından qaynaqlanaraq *lanpa, konbayn, panbıq* şəklində səhv yazılmasının qarşısını almaq olar.

Lampa – yunan sözüdür, "lampas" – məşəl, yanan çıraq, alov mənasını daşıyır. Burada kök "lambo" – parıldamaq, işıq saçmaq mənasında işlənir. Orta əsrlərdən sonra Avropa dillərinə, sonra isə rus dili vasitəsilə (*лампа*) Azərbaycan dilinə daxil olmuşdur.

Kombayn – ingilis dilindəki "combine" sözündən alınmışdır, mənası "birləşdirmək, bir araya gətirmək" deməkdir. Bu adın yaranması təsadüfi deyil. Çünki müasir kənd təsərrüfatı kombaynı bir neçə funksiyanı (çəkmə, biçmə, döymə, ayırma və s.) birləşdirən texniki qurğu olduğuna görə ona "combine harvester" – "birləşdirilmiş biçən-döyən maşın" adı verilmişdir. Sonradan söz qısaldılaraq *combine – комбайн – kombayn* formasında dilimizə gəlmişdir.

5) Orfoqrafiya üzrə mobil tətbiqlər – məsələn, *"Wordwall", "Quizizz", "Kahoot", "Azbul"* kimi tətbiqlərlə sözlərin düzgün yazılışını öyrətmək olar. Müəllim *"Wordwall", "Quizizz", "Kahoot"* internet tətbiqləri vasitəsilə dilimizin orfoqrafik qaydaları ilə bağlı maraqlı oyunlar ("Çərxi-fələk", "Qutunu aç", "Uyğunlaşdır", "Anaqram" və s.) hazırlayıb şagirdlərə təqdim edə bilər. *"Azbul"* mobil tətbiqdir, "Google Play"dən yüklənir və internet şəbəkəsinə qoşulmadıqda belə, rahatlıqla istifadə etmək olur. Bu tətbiq vasitəsilə şagirdlər verilmiş hərflərdən müxtəlif sözlər düzəltməklə onların hərfi tərkibini göz yaddaşına əsasən yadda saxlayırlar.








6) Oyunlaşdırma. Şagirdlərin orfoqrafik vərdişlərini inkişaf etdirmək üçün ibtidai sinif müəllimi müxtəlif çalışmalarla yanaşı, didaktik oyunlardan da istifadə edə bilər. Məlumdur ki, didaktik oyunlar şagirdlər üçün "çətin olanı asan, darıxdırıcını maraqlı edir....Oyun istifadə olunan dərslərdə şagirdlər fəallaşır, müəllimin verdiyi tapşırıqları yerinə yetirməyə can atır, bir-biri ilə əməkdaşlıq edir, mühakimə yürüdür və nəticə çıxarırlar. Oyunlar şagirdlərin düşünmə qabiliyyətini, araşdırma bacarığını artırır, yorğunluğunu aradan qaldırır" (Nəbiyeva, Abdullayeva, 2015, s. 199).

Bu tip oyunlara nümunə gətirək:

"Kim kənarda qaldı?"

Məqsəd: ismə (həmçinin digər nitq hissələrinə) aid orfoqrafik qaydalar əsasında şagirdlərin yazılı nitqini, əməkdaşlıq bacarıqlarını inkişaf etdirmək.

Döşəmədə iki dairə çəkilir və şagirdlər iki komandaya bölünürlər. Müəllim növbə ilə hər komandadan bir şagirdə sual və ya kiçik tapşırıq verir. Sual və tapşırıqlar müxtəlif ola bilər, məsələn: "*hədiyyə* sözünü yaz", "defislə yazılan mürəkkəb isim söylə və yaz", "*bağ* sözündən müxtəlif isimlər düzəlt və onları yaz", "*Qırğızıstan* və *qırğız* sözlərini yaz və bu sözlərin böyük və ya kiçik hərflə yazılma səbəbini izah et" və s. Düzgün cavab verən şagird onun komandası üçün ayrılmış dairəyə keçir. Səhv cavab verən şagirdlər isə dairəyə keçmək hüququnu itirirlər. Hər iki komanda çalışır ki, bütün üzvləri onun üçün ayrılmış dairənin içinə keçə bilsin. Komanda üzvlərini dairəyə tez toplayan tərəf udur.

"Yeddidaş"

Məqsəd: Şagirdləri mürəkkəb isimlərin düzgün yazılışında məşq etdirmək.

Müəllim kartondan kub düzəldir və kubun hər tərəfinə elə bir söz yazır ki, ondan mürəkkəb isim düzəltmək mümkün olsun. Hər dəfə sanama yolu ilə kubu atacaq şagird müəyyən olunur. Şagird atdığı kubun üst tərəfində qalan ismə yaxınmənalı (əksmənalı) sözlər qoşaraq mürəkkəb isim düzəldir və onu yazı taxtasına yazır. Şagird həmin isimdən mürəkkəb söz qura bilməzsə və ya qurduğu sözü səhv yazarsa, oyundan çıxır.

"Sözlərin içindəki heyvanları, quşları, həşəratları azad et"

Şagirdlərə sözlər verilir və həmin sözün tərkibindəki canlıları tapmaq tapşırılır. Şagirdlər tapşırığı yerinə yetirmək üçün sözün hərfi tərkibinə xüsusi diqqətlə baxırlar. Və bu da tələffüzündən fərqli yazılan sözlərin göz yaddaşına əsasən yadda qalmasına kömək edir.

İtburnu, ayıq, qazmaq, saat, sarımsaq, birbəbir, bitki, buğdayı, bulaq, büsat, şirniyyat, ayıb, qarğaşa, qazanc, cücərmək.

"Bir hərf-bir söz" oyunu da təşkil etmək olar. Şagirdlərə çətin orfoqramlı sözlər deyilir. Şagird həmin sözdəki hər hərflə başlayan sözlər yazır: *kənd – kitab, əncir, nərdivan, dama.* Bu zaman şagird sonuncu hərflə bağlı *t* ilə başlayan söz yazarsa, müəllim müvafiq qayda ilə bağlı orfoqrafik-orfoepik təhlil aparır.

Yaradıcı bir iş vermək məqsədilə *"Hekayə qur"* oyunu da təşkil etmək mümkündür. Bu zaman müəllim eyni orfoqramlı sözlər verir (Diqqət etmək lazımdır ki, maksimum 7 söz verilsin) və onları bir hekayə süjetində birləşdirməyi təklif edir. Məsələn, sonu *b* ilə bitib *p* kimi tələffüz edilən sözlərlə bağlı: *corab, qutab, boşqab, kabab, kitab, doşab* və s. sözlər verilə bilər.

Verilmiş hərf və ya hecalardan sözlərin düzəldilməsi və alınmış sözlərdən yalnız öyrənilən qayda ilə bağlı olanlarının dəftərə köçürülməsi də şagirdlərdə maraq oyadır. Burada *"Güllərdən şirə çəkməkdə arıya kömək et"* oyunundan istifadə etmək olar. Arının ayağında və güllərin üzərində bir heca yazılır. Bu güllərin arasında elələri olur ki, arı onların üzərinə oturduqda yeni söz yaranır və şagirdlər həmin sözlərin tərkibində olan orfoqramın altından xətt çəkməklə dəftərlərinə yazırlar. Lakin elə güllər də vardır ki, onların üzərinə "qonmaq" olmaz – əks təqdirdə sözün yazılışında səhv olar.

7) Diferensiallaşdırılmış tədris

Məqsəd: Şagirdlərin fərdi səviyyəsini nəzərə alaraq tapşırıqlar vermək. Güclü şagirdlərə daha çətin orfoqrafik tapşırıqlar, zəif şagirdlərə isə müəyyən model (nümunə) üzərindən işləmə tapşırıqları və ya dəstəkli yazı verməklə fərdi inkişafı təmin etmək. Məsələn, verilmiş nümunəyə əsasən sözlərin düzgün yazılışını müəyyən et:

- ***Ailə*** ----- *sayit, şayir, dayirə*
- ***Konfet*** ---- *kalbasa, kansert, kamandir*
- ***Anbar*** ----- *şəmbə, sümbül, zəmbil*
- ***Təəccüb*** ---- *təssüf, məttəl*

Dəstəkli yazıya nümunə:

Bu gün müəllim yeni k(o,a)mpüter proqramı ilə işləməyi öyrədirdi. Hamı böyük həy(ə,a)can içində idi. Uşa(q,x)lar hansı proqramın daha maraqlı olması ilə bağlı m(ü,u)bahisə edirdilər. Müəllim n(ü,u)munə üçün proqramdan istifadə ilə bağlı videoçarx göstərdi. Dərsin sonunda hamının gözündə böyük bir üm(ü,i)d var idi.

Müəllim sinifdəki şagirdlərin fərdi inkişaf səviyyələrini nəzərə alaraq eyni mətnin çətinlik baxımından fərqli versiyalarını hazırlayaraq onlara təqdim edə bilər.

8) Kolaborativ öyrənmə (Cütlərlə və ya qrup işi)

Məqsəd: Birgə öyrənmə yolu ilə uşaqların bir-birindən öyrənməsini və müzakirəetmə bacarığını inkişaf etdirmək.

Cütlərlə iş zamanı şagirdlərdən biri yazır, digəri yoxlayır. Səhvlər varsa bir-birinə izah edirlər.

Qruplarla söz yazma yarışları, orfoqrafiya viktorinaları təşkil etmək olar. Məsələn:

"Lüğət karuseli" – Qruplardan birinə müəyyən orfoqrafik qayda ilə bağlı sözlər verilir. Birinci qrup sözlərdəki orfoqramı tapır və qırmızı qələmlə nişanlayır, ikinci qrup həmin orfoqrafik qayda ilə bağlı başqa sözlər yazır, üçüncü qrup qaydanı izah edir.

Şagirdlərə müxtəlif sözləri orfoqrafik qaydalar üzrə qruplaşdırmağı da təklif etmək olar. Bu zaman hər qrupa bir orfoqrafik qayda və üzərində müxtəlif sözlər yazılmış kartlar verilir. Şagirdlər həmin qayda ilə bağlı sözləri tapıb cütləşdirirlər.

Orfoqrafiya viktorinası (fərdi və komanda şəklində təşkil edilə bilər):

- sinif 4–5 nəfərlik komandalara bölünür, hər komandaya kapitan seçilir;
- qaydalar əvvəlcədən izah edilir, lövhə və ya proyektor hazırlanır;
- suallar əvvəlcədən hazırlanıb *turlar* üzrə bölünür;
- qiymətləndirmə cədvəli tərtib olunur;
- *I tur – "Düzgün yaz":* hər komandaya 5 söz verilir, şagirdlər həmin sözləri kartlara yazırlar (hər düzgün yazılan sözə görə 1 bal qazanırlar);
- *II tur – "Boşluğu doldur":* Hər komanda verilmiş mətndə ötürülmüş hərfi (və ya sözü) yerinə qoyur (hər düzgün cavab 1 bal);
- *III tur – "Sürətli cavab":* komandaların kapitanlarına orfoqrafiya ilə bağlı qısa suallar verilir, 5 saniyə ərzində cavab vermələri tələb olunur (hər düzgün cavab 2 bal);
- *IV tur – "Qaydanı izah et":* hər komandaya müəyyən orfoqramlı bir söz verilir, komanda müvafiq orfoqrafik qaydanı səsləndirir, izah edir (3-5 bal);
- *V tur – "Səhvləri tap"*: komandalara müəyyən mətn verilir, komanda həmin mətndə orfoqrafik səhvlər varsa, tapır (hər tapılan səhv 2 bal) (müəyyən "qayda ilə bağlı istisnaları tap" da ola bilər).

Sonda ümumi ballar toplanır, ən yüksək bal toplayan komanda qalib elan edilir.

Nəticələr

Bu gün Azərbaycan dili üzrə fənn kurikulumunda IV sinfin sonunda şagirdlərin yazı bacarıqlarının səviyyəsinə yüksək tələblər qoyulur. Belə ki, IV sinfi bitirən şagirdlərin hər hansı hadisə ilə bağlı yazılı təqdimatlar etmək; tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirmək; mənzum mətni nəsrə çevirərək yazmaq; sadə praqmatik mətnlər (təlimat, gündəlik, açıqça, elan, şüar, xülasə, izahat, rəy) tərtib etmək; fikir və mühakimələrini essedə əks etdirmək və s. kimi bacarıqlara sahib olması gözlənilir (İsmayılova, Nurullayeva və d., 2023, 7–8). Bu da onlarda yazıya verilən başlıca tələblərdən birinin – orfoqrafik savadlılığın tərbiyə olunmasını zəruri edir. Orfoqrafik vərdişlərin formalaşdırılmasında yeni təlim texnologiyalarının rolu əvəzedilməzdir. Çünki təlim prosesində müasir təlim texnologiyalarının tətbiqi öyrənməyə maraq oyadır, dərs boyunca

fəaliyyət növlərini dəyişməyə, psixoloji gərginliyi və yorğunluğu aradan qaldırmağa, diqqəti fərqli obyektlərə yönəltməklə canlı saxlamağa – bir sözlə, motivasiyanı qorumağa kömək edir.

Müzakirə

Bu gün şagirdlərin yazısı üzərində aparılan müşahidələr söyləməyə əsas verir ki, ibtidai siniflərdə şagirdlərin orfoqrafik vərdişlərinin formalaşdırılması baxımından işin təşkili kifayət qədər qənaətbəxş deyil. Məhz bunun nəticəsidir ki, ibtidai sinfi başa vuran və artıq orta təhsilə qədəm qoyan şagirdlərin orfoqrafik bacarıqlarının inkişaf səviyyəsi, əsasən, gözlənilən tələblərə cavab vermir. Belə ki, şagirdlər yazılarında tez-tez hərfötürmə, hərfartırma, hərfəvəzləmə, sətirdən-sətrə yanlış keçirmə hallarına yol verir; bəzən cümlə daxilində baş hərfdən məqamına görə düzgün istifadə edə bilmir, mürəkkəb sözlərin bitişik, ayrı, defislə yazılışında çoxsaylı səhvlər edirlər.

İbtidai sinif şagirdlərinin orfoqrafik bacarıqlarının inkişafı üçün səmərəli metodlar hər zaman olaraq tədqiqatçı-alimlərin araşdırma obyekti olmuşdur. Yeni təlim texnologiyaları şagirdlərin idrak fəaliyyətinin aktivləşdirilməsinə kömək edir və onların müasir məktəbdə tətbiqi vacibdir. Bu baxımdan yeni nəsil dərsliklərin təhlili əsasında şagirdlərin orfoqrafik vərdişlərinin müasir tələblər səviyyəsində inkişafına yol açan üsulların, metod və priyomların axtarışına, müxtəlif səpkili iş növlərinin hazırlanmasına istiqamətlənmiş tədqiqatların aparılmasına ehtiyac vardır.

Nəticə

Şagirdlərin orfoqrafik savadlılığının aşağı səviyyədə olması onlarda orfoqrafik bacarıqların formalaşdırılmasına lazımi diqqətin yetirilməməsindən irəli gəlir. Orfoqrafiya təlimi orfoqrafik qaydanın öyrədilməsi ilə başlayır. Lakin, qayda ilə tanışlıq müvafiq orfoqrafik məşqlərlə müşayət edilməzsə, şagirdlərin marağını oyadan, onları idrak fəallığına sövq edən iş növləri ilə dəstəklənməzsə, müsbət nəticə verməyəcəkdir. Unutmamalıyıq ki, vərdiş – yalnız uzunmüddətli və sistematik işin aparılması sayəsində yaranır.

Ədəbiyyat

1. Abdullayev, N. (2008). *Orfoqrafiya və orfoepiya təlimi məsələləri.* "ADPU" mətbəəsi.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. (2013). "*Azərbaycan məktəbi",* №2
3. Cəfərova, N. (2016). *İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası.* II hissə. "ADPU".
4. Dəmirçizadə, Ə. (2007). *Müasir Azərbaycan dili* (I hissə). "Şərq-Qərb".
5. Əfəndizadə, Ə. (1980). Suallara cavab. *Azərbaycan dili və ədəbiyyat tədrisi ("Azərbaycan məktəbi" jurnalına əlavə),* №4.
6. Əhmədov, B. (2001). *Azərbaycan dilinin qısa etimoloji lüğəti.* "Təfəkkür".
7. Əhmədov, B. (2007). *Azərbaycan dili tədrisinin bəzi məsələləri.* "Təhsil".
8. İsmayılov R., Nurullayeva Ü., Zahidova Ş., Bayramova İ., Xanalıyeva A., Cəlilova K. (2023). *Ümumi təhsil müəssisələrinin 4-cü sinifləri üçün Azərbaycan dili fənni üzrə dərsliyin metodik vəsaiti.* "Azərbaycan Respublikasının Təhsil İnstitutu nəşriyyatı".
9. Kərimov, Y. (2013). *İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası.* "Səda".
10. Məmmədov, A. (2014). *Azərbaycan dili dərslərində etimoloji təhlil.* "Mütərcim".
11. Nəbiyeva, Ş., Abdullayeva, G. (2015). *İbtidai siniflərdə Ana dilinin tədrisi metodikası fənnindən mühazirələr.* "Elm və təhsil".
12. Nurullayeva, Ü., Allahverdiyeva, N., Bayramova, İ., Xanalıyeva, A. (2020). *Azərbaycan dili* (1-ci sinif üçün dərslik, I hissə). "Şərq-Qərb".
13. Rəhimov, A. (2015). *Ana dilinin tədrisi metodikası* (ibtidai siniflərdə). "BQU nəşriyyatı".
14. Ümumtəhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları). (2010). *Kurikulum,* №3.
15. Богоявленский, Д. (1962). Формирование приемов умственной работы учащихся как
16. Путь развития мышления и активизация учения. *Вопросы психологии,* № 4. https://idrak-m.com/?p=1640